*Prezident İlham Əliyev:*

# Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir

**Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər.**



Bu gün dünya azərbaycanlıları qürur hissi keçirirlər ki, onları müdafiə və himayə edən, hər bir azərbaycanlının inam və güvən yeri olan müstəqil Azərbaycan dövləti mövcuddur. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli maraqlara söykənən daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına və qanunauyğunluqlarına uyğun surətdə davam etdirilməsi ölkəmizi hər bir azərbaycanlının görmək istədiyi ideal məmləkətə çevirib.

"Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən və ötən dövr ərzində həyata keçirdiyi daxili və xarici siyasət strategiyasının, bunun fonunda ölkəmizin inkişafının real nəticələrinə, Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminin nüfuzlu və güclü dövlətinə çevrilməsinə, eyni zamanda, özünün liderlik keyfiyyətlərinə görə bunu sübuta yetirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət bu gün hər bir azərbaycanlının müstəqil Azərbaycan dövlətinə bağlılığını, inam və güvənini təmin edən başlıca faktor qismində çıxış edir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda azərbaycançılıq ideologiyası milli həmrəylik və birliyin daha da möhkəmləndirilməsinə xüsusi töhfələr verir. Dövlətimizin başçısı bununla bağlı qeyd edib ki, azərbaycançılıq fəlsəfəsi, ilk növbədə, ümummilli lider Heydər Əliyevin təşəbbüsü idi və bu ideologiya bütün cəmiyyəti birləşdirir: "Bu ideologiya həm tarixə, həm də müasirliyə əsaslanır. Həm tarixi keçmişimizi özündə ehtiva edir, eyni zamanda, bizim bu sahədə bugünkü siyasətimizi əhatə edir. Bu istiqamətdə atılan addımlar dünya tərəfindən artıq bilinir və təqdir edilir".

Prezident İlham Əliyev vurğulamışdır ki, Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında dünyada yaşayan azərbaycanlıların rolu daha da güclənməlidir: "Mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir... Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin isə gücünüz Azərbaycan dövlətinin güclü olmasıdır. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin mövqeləriniz də bir o qədər güclü olacaqdır... Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək".

Yuxarıda qeyd edilənlər Prezident İlham Əliyevin bu günlərdə Gürcüstana rəsmi səfəri çərçivəsində qonşu ölkədə yaşayan azərbaycanlılarla görüşündə bir daha öz təsdiqini tapdı. Ölkə başçısı burada səsləndirdiyi fikirlərlə bütün dünya azərbaycanlılarına göstərdiyi diqqət və qayğını yüksək səviyyədə nümayiş etdirdi. Gürcüstanda yaşayan soydaşlarımızın problemlərinə hər zaman həssaslıqla yanaşdığını, bu problemlərin aradan qaldırılması yönündə dövlətimizin gördüyü işləri qeyd edən Prezident dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının öz ölkəsinə inam və güvəninin möhkəmlənməsinin əhəmiyyətini də vurğuladı. Gürcüstanda yaşayan azərbaycanlıların həyat səviyyəsinin yaxşılaşması və sosial-siyasi statuslarının güclənməsi təbii ki, xeyli dərəcədə Azərbaycan-Gürcüstan münasibətlərindən asılıdır.

Azərbaycan ilə Gürcüstan arasında qonşuluq və əməkdaşlıq əlaqələrinin çox qədim tarixə əsaslandığı hər kəsə bəllidir. Bu tarixilik amili, o cümlədən ikiqütblü dünyanın mühüm tərəfi kimi beynəlxalq arenada çıxış edən SSRİ-nin dağılmasından sonra hər iki ölkənin daxili və xarici siyasətdə oxşar vəziyyəti və geosiyasi maraqlar Azərbaycan-Gürcüstan münasibətlərinin yaxınlaşmasına və bu günə kimi inkişafına zəmin yaratmışdır. İki ölkə arasında strateji əməkdaşlıq münasibətləri indi də uğurla inkişaf edir. 1996-cı ildə ümummilli lider Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı imzalanmış sənədlərlə əsası qoyulmuş strateji münasibətləri gücləndirən siyasət kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və ölkə başçısının noyabrın 5-də Tbilisiyə rəsmi səfəri çərçivəsində gürcü həmkarı ilə imzaladığı Birgə Bəyannamə rəsmi Bakının regiondakı ən yaxın müttəfiqinə yönəlik xoş münasibətini bir daha təsdiqlədi.

Azərbaycan və Gürcüstan, demək olar ki, bütün sahələrdə-iqtisadi, siyasi, nəqliyyat, humanitar və mədəni sahələrdə tərəfdaşdır və birlikdə iri regional layihələr həyata keçirirlər. Avrasiyanın energetika mənzərəsini dəyişən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz layihələri hazırda uğurla fəaliyyət göstərir. Asiya ilə Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin icrası da tamamlanmaq üzrədir və tezliklə dəmir İpək Yolu işə düşəcək. Bu baxımdan qlobal enerji, nəqliyyat-kommunikasiya layihələrində təmsil olunan Gürcüstan etibarlı tərəfdaş kimi özünü doğruldur və bu amil iki ölkə arasında əlaqələri daha da gücləndirir. Əlbəttə, bu münasibətlər yalnız iqtisadi sahə ilə məhdudlaşmır, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumların fəaliyyətini də əhatə edir. Azərbaycanı strateji müttəfiq adlandıran Gürcüstan rəsmiləri ölkəmiz ilə yaranmış münasibətlərin həyati xarakter daşıdığını dəfələrlə vurğulayır və Azərbaycanla həmrəy olmağın zəruriliyini önə çıxarırlar. Bütün bunlar Gürcüstanın xarici siyasətində Azərbaycanla yaxın qonşuluq münasibətlərinə çox böyük önəm verildiyini nümayiş etdirir.

Coğrafi yaxınlığın və tarixi bağlılığın iki xalq arasında münasibətlərin xarakterini müəyyənləşdirməsi reallıqdır. Məhz bu yaxınlıq və ortaq maraqlar mehriban qonşuluq siyasətinin formalaşmasına münbit şərait yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri çərçivəsində söylədiyi fikirlər də bu həqiqəti bir daha təsdiqləyir: "Ölkələrimiz və xalqlarımız uzun əsrlər boyu mehriban qonşuluq və dostluq şəraitində yaşamışlar. Müstəqillik qazandıqdan sonra da biz bu münasibətləri strateji tərəfdaş olaraq uğurla davam etdiririk".

Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili də öz növbəsində qeyd etmişdir ki, Gürcüstan və Azərbaycan xalqlarının ortaq tarixi, ən önəmlisi bu tarix boyunca xalqlarımız tərəfindən əsası qoyulan və münasibətlərimizin möhkəm təməlini əks etdirən nadir dostluq əlaqələri var. Bu möhkəm dostluq münasibətlərinin Azərbaycanın və Gürcüstanın sabiq rəhbərləri Heydər Əliyevə və Eduard Şevardnadzeyə regional əməkdaşlıq üçün çox əhəmiyyətli strateji layihələri həyata keçirmək işində mühüm dəstək olduğunu vurğulayan Gürcüstan Prezidenti əlavə etmişdir ki, bu səylər hər iki ölkəyə və ümumilikdə, regiona geosiyasi əhəmiyyət verdi. Gürcüstan dövlətinin lideri xüsusilə bildirmişdir ki, bu önəmli təşəbbüsün həyata keçirilməsinə başlanmasından, demək olar ki, iyirmi il ötür və bu müddət ərzində möhkəm dostluq və yaxın əməkdaşlığımız sayəsində Azərbaycan və Gürcüstan çoxsaylı çağırışlara lazımınca cavab verə bilmişdir.

Müasir Azərbaycanın daha da inkişaf etdiyini qeyd edən Gürcüstan dövlətinin başçısı Giorgi Marqvelaşvili bu yenidənqurma prosesində Prezident İlham Əliyevin rolunun vacib və əhəmiyyətli olduğunu da vurğulamışdır.

Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin inkişafına müsbət təsir göstərən amillərdən biri də qonşu ölkədə azərbaycanlı əhalinin yaşamasıdır. Uzun əsrlər boyu bu torpaqlarda yaşayan soydaşlarımız bu gün Gürcüstanın inkişafına öz töhfələrini verir, iki ölkə arasında münasibətlərin daha da güclənməsində böyük rol oynayırlar. Prezident İlham Əliyev Gürcüstana rəsmi səfəri çərçivəsində azərbaycanlıların kompakt yaşadıqları Marneuli rayonuna baş çəkmiş və 2012-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyinin dəstəyi ilə istifadəyə verilən "Çay evi" tədris mərkəzində fəaliyyət göstərən müxtəlif yaradıcılıq kollektivlərinin və dərnəklərin fəaliyyəti ilə tanış olmuşdur. Dövlətimizin başçısı Gürcüstanda yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşündə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin strateji xarakter daşıdığını vurğulamış və əməkdaşlığımızın böyük tarixi və gözəl gələcəyi olduğunu nəzərə çatdırmışdır.

Soydaşlarımızın fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, hər iki ölkə ərazisində yaşayan azərbaycanlılar və gürcülər Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayacaqlar. Mehriban qonşuluq şəraitində yaşamağı böyük nailiyyət adlandıran ölkəmizin rəhbəri əlavə etmişdir: "Biz çox istəyirik ki, həm Azərbaycanda yaşayan gürcülər, həm Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra da ölkələrin ictimai, siyasi, iqtisadi həyatında öz rolunu oynasınlar və həm öz ölkələrinin dəyərli vətəndaşları kimi töhfə versinlər, eyni zamanda, əlbəttə, öz tarixi köklərini də unutmasınlar. Mən istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar rahat yaşasınlar. Onların iş yerləri ilə təmin edilməsi istiqamətində daha da ciddi addımlar atılsın, onlar öz dəyərini yaxşı hiss etsinlər və Gürcüstanın dəyərli vətəndaşları kimi bu ölkənin ümumi inkişafına öz töhfəsini versinlər".

Münasibətlərin hazırkı səviyyəsi də deməyə əsas verir ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq daha böyük nəticələrin əldə olunmasına imkan yaradacaq və regional inkişafın təmin olunmasında mühüm rol oynayacaq. Gürcüstan Prezidenti də azərbaycanlı həmkarının səfərinin çox mühüm olduğunu vurğulamış və hər iki ölkə arasında strateji əməkdaşlığın və gələcək əlaqələrin dərinləşməsi baxımından çox əhəmiyyət kəsb etdiyini bildirmişdir.

**Taleh Turqut,**
***"İki sahil"***